# Bir qocaman dağ kimi...

**Bəllidir ki, Qərb ədəbiyyatında romantizm maarifçilikdən sonra, onu inkar edərək XVIII əsrin sonu, XIX əsrin əvvəllərində vüsət almışdısa, Azərbaycan ədəbiyyatında bu cərəyan maarifçiliyin ideoloji bazasında yetişdi. Bəlkə də bu barınmanın unikal nəticəsi idi ki, XX əsrin əvvəllərində romantizm ilə realizm dinc-yanaşı, paralel inkişaf etdi və biri digərinə əsla mane olmadan özlərinin fəaliyyət istiqamətlərində yollarına davam etdilər. Bu cəhətə xüsusi önəm verən akademik Məmməd Cəfərin qeyd etdiyi kimi: "XX əsr Azərbaycan romantizmi ilə realizmi arasında uçurum olmamışdır. Yəni bu romantizm realizmə qarşı olmamışdır, əksinə dövrün ən qabaqcıl ədəbi cərəyanı olan realist üslubdan müsbət mənada təsirlənə-təsirlənə inkişaf etmişdir."**

Ötən yüzillikdə romantik məzmunlu, həmçinin mənzum dramaturgiyamızın yaradıcılarından olan Hüseyn Cavidin bu sahədəki yaradıcılığı bir sıra özəllikləri ilə Azərbaycan romantizminin fəlsəfi-bədii təbiətini zənginləşdirərək, özünün qeyri-adi unikal fəhmi ilə ona görünməmiş vüsət bəxş etdi. Bütün yaradıcılıq fəaliyyəti boyu bu ədəbi cərəyanın bütün bədii-estetik imkanlarından faydalanan ədib Azərbaycan oxucusunun və tamaşaçısının ixtiyarına zamanın qartmış problemləri fonunda milli olduğu qədər də bəşəri ideyalarla zəngin olan sənət əsərləri təqdim etdi.

### *Maraqlı və əlamətdar faktdır ki,*

janrı, fikir miqyası və coğrafi məkan dairəsi geniş olan Hüseyn Cavid əsərlərinin rəngarəngliyi içərisində elm, irfan ardınca yollandığı, dörd il yaşadığı və təhsil aldığı Türkiyə mühitinin həlledici təsiri açıq-aşkardır.

1903-cü ilin iyun ayında ali təhsil almaq məqsədilə İstanbula getsə də, ağır xəstəlik səbəbilə üçün təhsilini davam etdirə bilməyən Hüseyn Cavid Naxçıvana, sonradan isə Bakıya qayıdır. Birinci gedişində məqsədinə nail ola bilməyən şairin İstanbula ikinci gedişi 1905-ci ilin may ayına təsadüf edir. Orta təhsil haqqında rəsmi sənədi olmadığından o, yenidən imtahan verərək İstanbul darülfünunun ədəbiyyat şöbəsinə daxil olur. Burada onu da qeyd edək ki, H.Cavidin İstanbulda təhsil aldığı illər Türkiyədə tənzimat ədəbiyyatının son dövrü idi. Bu ədəbiyyat 1839-cu ildə Osmanlı dövlətinin Avropa və Rusiya müdaxiləsi qarşısında "varlığını qorumaq" üçün qəbul etdiyi "tənzimat islahatı"nın təsiri ilə yaranmışdı və özündə Avropa ədəbiyyatının forma və məzmun cəhətdən türk ədəbiyyatına təsirini ehtiva edirdi. Bu dövrün tanınmış ziyalıları, o cümlədən İbrahim Şirasi, Yeni Osmanlılar Partiyasının yaradıcısı və rəhbəri, "qələmini silaha çevirmiş şair, inqilabi ruhda pyeslər yazan dramaturq, Avropasayağı romanlar müəllifi və mübariz mətbuatın tərəqqisi yolunda çalışan" Namiq Kamal, "Sərvəti-fünun"un redaktoru Tofiq Fikrət tənzimat dövrü ədəbiyyatının görkəmli nümayəndələri idilər.

### *İstanbul darülfünunda təhsil aldığı illərdə*

ixtisasca həkim olan şair, filosof, təsəvvüf cərəyanının tədqiqatçısı Rza Tofiq Bölükbaşıdan dərs alan H.Cavidin dünyagörüşünün formalaşmasına heç şübhəsiz ki, klassik Şərq ədəbiyyatının görkəmli nümayəndələri ilə yanaşı, Türkiyə dövrü yaradıcılığına yuxarıda adları qeyd edilən sənətkarların da təsiri az olmamışdır. Məhz bu səbəbdən süqut dövrünü yaşayan tənzimat ədəbiyyatının digər üzvləri kimi bu dövrdə H.Cavidin də ilk qələm təcrübələrinə mövcud yaşamın çıxılmazlıq ovqatından qaynaqlanan pessimist ruh hakim idi. Həmin illərdə yazdığı şeirləri sırasında "Rəqs", "Hər yer səfalı", "Çəkinmə, gül", "Pənbə çarşaf", "Xuraman-xuraman", "Uyuyur", "Mən istərəm", "Kiçik bir lövhə", "Şeir məfhumu", "Dəniz pərisi", "Son baharda", "Yadi-mazi", "Ah, yalnız sən!", "Hali-əsəfistimalimi təsvirdə bir ahi-məzlumanə" kimi nümunələri qeyd edə bilərik.

Daha sonralar, İstanbulda təhsilini bitirib qayıtdıqdan sonra, 1917-ci ildə H.Cavid Türkiyə həyatından bəhs edən dördpərdəlik "Uçurum" və 1922-ci ildə "Afət" pyeslərini yazır. Görünür, o, hələ İstanbul darülfünununda təhsil aldığı illərdə zəngin müşahidələrinin təsiri ilə sözügedən mövzularda səhnə əsərləri yazmaq barədə düşünmüşdür. Akademik Məmməd Cəfərin "Uçurum" haqqında fikirləri də dediklərimizi bir daha təsdiqləyir: "... "Uçurum"u 1905-1906-cı illərdə və məhz bizə məlum olan şəkildə yazılmış bir əsər hesab etmək mümkün deyildir. ... "Uçurum"un ilk variantı, bəlkə də eskizi, planı, xarakterlərin səciyyəvi həqiqətən Cavidin Türkiyədə oxuduğu illərdə qaralanmış, lakin şair 1917-ci ildə mövzu üzərində əsaslı surətdə işləyib, əsərini tamamlamışdır. Əsər 1917-ci ildə yazılsa da, hər halda bu faciədə Cavid vaxtı ilə (1905-1909) İstanbulda oxuduğu zaman yaxından tanış ola bildiyi müxtəlif məsləkli gənc türk zadəganlarının həyatını, onların əxlaqını, məişətini və özünün bu zadəganlar mühitinə olan münasibətini göstərmək istəmişdir."

Amma bu da var ki, pyesdə təkcə "gənc türk zadəganlığının həyatını" göstərmək müəllifin ədəbi niyyətinin yalnız zahiri tərəfidir. Əsərdə praqmatizm ilə romantizmin əqidə göstəricisi kimi antoqonizminin fəlsəfi bucaq altında dəyərləndirilməsi insan və onun həyat mövqeyi məsələsinin səhnə sənətinin ifadə vasitələri ilə aşkarlanmasıdır.

Bəlli olduğu kimi "Uçurum"un baş qəhrəmanı müəllif ideyasının təcəssüm ifadəçisi olan Cəlaldır. Əsərin birinci pərdəsində İldırımla Əkrəmin dialoqunda Cəlalın həyat kredosu, sənət konsepsiyası açıqlanır və belə məlum olur ki, o, real maddi varlığı, realist üslubu inkar edir, xəyali-romantik mahiyyətli sənəti üstün tutur:

**Cəlal həqiqətdən ziyadə məncə**
**Xəyal düşkünüdür, onun zənnincə**
**Xəyaldan doğarmış bütün böyüklük,**
**Həqiqi lövhələr onca çox sönük...**

Pyesin ədəbi mündəricəsindən məlum olduğu kimi Cəlal nəcibliyi və saflığı ilə pərəstişə layiq Göverçinlə yenicə ailə həyatı qurmuşdur. Amma xarakterindəki real varlığı qəbul etməyən çılğınlıq, xəyalpərvərlik ona rahatlıq vermir. Cəlal Avropa rəssamlıq sənətinin əski və yeni bədii istiqamətləri ilə tanış olmaq, təkmilləşmək məqsədilə Fransaya getmək istəyir. Qarşıda onu gözləyən uzunmüddətli ayrılıq Göverçinə "sərbəst ikən əsir olmaq" qədər ağır olsa da, atası Uluğbəyin nəsihəti ilə Cəlalın istəyinə qarşı çıxmır, onu "hürriyyətlə zəncirləyir."

Müəllifin yazdığı kimi hələ birinci pərdədə Cəlalın söylədiyi "Kaş ki, mən də öylə sərbəst olaydım! ... Həp oxşardım pənbə, gül yanaqları" misraları hadisələrin sonrakı inkişafı üçün sanki bir zəmin yaradır. Belə ki, əsərin ikinci pərdəsinin remarkasından artıq beş ay müddətində Parisdə olduğu məlum olan Cəlal Göverçinlə vidalaşarkən:

**Göverçin, Göverçin, inan nə etsəm,**
**Nerdə bulsam mən, nə yolda getsəm.**
**Əsla tapındığım məsləkdən dönməm,**
**Səndən başqa bir kimsəni düşünməm**

vədini versə də, artıq Anjel adlı rəqqasə, "şeytan ruhlu bir mələk"lə sevgilidir. Və o, İstanbula Anjellə bərabər qayıdır. Akademik Məmməd Cəfərin qeyd etdiyi kimi: "İndi o artıq istedadı ilə çoxlarını heyran edən, ümidlər verən əvvəlki rəssam Cəlal deyil, əyyaş, əxlaqsız bir cavandır." Bu, özünü Cəlalın Göverçinə olan münasibətində daha aydın göstərir. Belə ki, onun Göverçinə münasibəti büsbütün dəyişir, hətta onu:

**Əvət, kim bilir, bəlkə qəlbin sənin**
**İmdi çarpır da yeni bir eşq için?**



kimi iftira dolu sözlərlə ittiham etməyə çalışır.

Pyesin dramatik səhnələrinin birində müəllifin təqdim etdiyi hadisədə Cəlal öz tərəf-müqabili Göverçini eyvanda itələyərkən körpə Mənəkşə anasının qucağından yerə düşüb həlak olur. Bədbəxt qadın, övladının ölümü ilə barışa bilməyən ana öz ata yurduna dönmək məcburiyyətində qalır. Sonda Cəlal əməllərindən acı çəksə də, dəfələrlə Göverçindən üzr istəsə də, Göverçin: "Qırılmış bir könül, sağalmaz, məhal!" deyə onu özündən uzaqlaşdırır. Və Cəlal Göverçinin nəzərində "çox alçal"dığını dərk edir və həyatının "qaranlıq, çıxılmaz yolu"nun sonunu uçurumda bitirir. Pyesin finalındakı uçurum yalnız Cəlalın faciəvi sonluğu deyil, eləcə də insanlığın mənəvi dəyərlərə, ictimai mövqeyə münasibət baxımından qarşısında yaranmış qorxunc rəmzi məna kəsb edir.

Onu da qeyd edək ki, o zamankı dövlət senzurasını həyata keçirməyə meyilli olan 20-30-cu illərin ədəbi tənqidi yeri gəldi-gəlmədi Cavidi Türkiyə həyatından yazmaqda, yaşadığı mühiti, cəmiyyəti, öz xalqının məişətini əks etdirmədiyi üçün mühakimə edirdi. Əslində isə sənətkarın qələmə aldığı mövzular konkret bir ərazidə təsvir edilsə də, xarakterik mahiyyəti və bəşərilik baxımdan başqa coğrafi məkanlara, o cümlədən Azərbaycan mühitinə də yad deyildi. Fikrimizin sübutu kimi XX əsr milli ədəbiyyatımızın digər görkəmli sənətkarı C.Cabbarlının "Sevil" əsərini misal göstərə bilərik. Əsərdə hadisələr Azərbaycanda cərəyan etsə də, mövzu və ideyasına görə "Uçurum"la səsləşir. Belə ki, Balaşın da Cəlal kimi Avropa mədəniyyətinə sahiblənmək istəyi təqlidçilikdən, ədabazlıqdan uzağa gedə bilmir, avropalaşmaya süni cəhdlərin eybəcərliyinə, gülünc və acınacaqlı nəticələrinə müəllif münasibətini ehtiva edir.

Belə təqlidçi gənclərdən biri də Cavidin hadisələri yenə də Türkiyə mühitində cərəyan edən "Afət" əsərinin qəhrəmanı doktor Qarataydır. O, həyatının on altı ilini kobud, əyyaş, sevgi və sayğı hissindən uzaq Özdəmirlə keçirən, təkliyin faciəsini yaşayan Afətə özünü fədakar aşiq kimi göstərir. "...33 yaşına qədər sevgi, məhəbbət hissindən və ailə sədaqətindən məhrum olduğundan, sevmək, sevilmək həsrəti onun (Afətin ? A.Q.) varlığında ən qüvvətli, yeganə ehtirasa çevrilir." Afətin məhz sevilmək həsrətinə "mahir qadın düşkünü" Qarataya olan sevgisi son qoysa da o, yenidən aldanmaqdan qorxur: "Mən bütün mənliyimi, bütün həyat və səadətimi yoluna fəda etməyə hazıram. Hətta sənin uğrunda cinayətdən belə çəkinməm. Ancaq bu qədər var ki, aldadılmaq istəməm, aldandığımı duysam, məhv olaram. Həm də çox kinliyəm, anlayırsanmı? Məni aldatmaq istəyənləri əsla əfv etməm. İki gözüm olsa belə, intiqam alıram, intiqam! ... Məni təhqir edənlər Əzrailin qucağına atılmış olurlar." Əsərin əvvəlində hadisələrin axınının bədii eyhamı kimi səslənən bu ifadələr sonda gerçəkləşir. Belə ki, əvvəlcə "təhqir edən"(Özdəmir), daha sonra "aldadan" (Qaratay), ən sonda isə "aldadılan"lar(Afət) Əzrailin qucağına atılmış olurlar. Professor T.Əfəndiyevin sözləri ilə desək, "əsərin mərkəzində Afətin taleyi, daha doğrusu, özünün dediyi kimi "talesizliyi" dayanır. ... Məsum məhəbbət axtarışı dəhşətli demonik bir hissə çevrilir, cinayət və intihar finalını zəruri edir."

### *Elmi-nəzəri mülahizələr*

sırasında bəzən rast gəldiyimiz Afətlə Lev Tolstoyun məşhur roman qəhrəmanı Anna Karenina arasında bənzərlik axtarılması cəhdləri əbəs olduğu üçün mənasızdır. Çünki bu ədəbi obrazlar arasındakı fərqlilik təkcə pyes, roman, yəni janr ölçülərində, yaxud mühit və s. fərqlərdə deyil. Halbuki elə bu fərqlərin özü az əhəmiyyətli arqumentlər deyil. Əlbəttə, burada əgər assosiativ yanaşsaq, sadə olmayan, tərəddüdlər və ehtiraslar, sevgilər və məyusluqlar məngənəsindəki faciəli qadın taleyinin yaşam tarixçəsi haradasa kəsişir. Amma tamamilə aşkar olan budur ki, istər müəlliflərin fəlsəfi-bədii niyyəti, istər əsərlərin ideya məzmunu, istərsə də baş qəhrəmanların ədəbi-psixoloji motivasiyaları olduqca fərqlidir.

Əsərin yazılma tarixindən akademik M.Cəfərin gəldiyi qənaətə görə: "Afət"i yazdığı illərdə Cavid yenidən Türkiyəyə səfər etməmişdi. Çox ehtimal ki, "Uçurum"un ilk variantını Türkiyədə, tələbəlik illərində qaraladığı kimi, "Afət" də şairin Türkiyədə planlaşdırdığı əsərlərdən biri olmuşdur."

Yuxarıda qeyd etdiyimiz kimi, bəzi tənqidçilər H.Cavidi çox zaman Azərbaycan mühitindən yazmamaqda ittiham edir, bəziləri isə əksinə onu turançılıqla yanaşı milli məhdudluqda da suçlayırdılar. Belə ki, M.Hüseyn 1934-cü ildə yazdığı "Hüseyn Cavid haqqında bir-iki söz" adlı tənqidi məqaləsində onun usta sənətkar olduğunu inkar etməsə də, "milli məhdudluqdan, turançılıq məfkurəsindən" xilas ola bilmədiyini vurğulayırdı. Halbuki H.Cavidin yaradıcılıq miqyası heç bir konkret qəlibə sığmayacaq qədər genişdir. Belə ki, bu zəngin yaradıcılığı turan coğrafiyası ilə məhdudlaşdırmaq cəhdlərini zaman özü boşa çıxardı. H.Cavidin təbiət möcüzəsi olan istedadı "gövhəri laməkan"(İ.Nəsimi) olaraq özünün yazdığı kimi "səma şairi" səlahiyyəti ilə sadə izahlara sığmayan möhtəşəm mədəniyyət hadisəsidir. Rəfiq Zəka Xəndanın söylədiyi sərrast bir fikrə görə: "Böyük sənətkarı tənqidə qalxışanlar belə onu təqlid etməkdən özlərini saxlaya bilməmişlər. Çünki Cavid sənəti vazkeçilməz bir aləmdir."

Bəli, uzun illər ədəbi-tənqidi ictimaiyyətin nəzərində "milli məhdudluqdan çıxa bilməyən", "turançı" kimi göstərilməyə cəhd edilsə də, Cavid sənəti ümumbəşəridir. Onun təhlilə cəlb etdiyimiz "Uçurum" və "Afət" əsərlərinin nümunəsində göründüyü kimi böyük ədəbiyyat hadisəsi sayılacaq bütün yaratdıqları coğrafi məkan tanımayan, ən uca ədəbi-bədii meyarlar səviyyəsində qəbul edilən möhtəşəm sənət nümunələridir.

***P.S.* Taleyin, tarixin, mədəniyyətin ən böyük hikməti və həqiqəti budur ki, dünən onu təqiblərə, ittihamlara hədəf edənlər çoxdan unudulsalar da, Sabirin təbirincə desək, dəryada duran bir qocaman dağa bənzəyən Hüseyn Cavid yaşayır və hələ əsrlər boyu yaşayacaq.**


**Afət Qədirova**
**AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru**